

Azərbaycan bu həftənin əvvəli öz müstəqil tarixində mühüm məqama çatıb. Belə ki, Avropa Parlamentinin Azərbaycanı seçki müşahidə missiyalarının tələb olunduğu ölkələr siyahısından çıxardığı elan edilib.

Bunu Azərbaycanın Avronest PA-da nümayəndə heyətinin rəhbəri, Avronest PA-nın vitse-prezidenti Elxan Süleymanov deyib.

E.Süleymanov hesab edir ki, bu xəbər 2013-cü ilin oktyabr ayında ölkəmizdə keçiriləcək prezident seçkiləri ərəfəsində böyük bir andır:
"Avropa İttifaqı yarandığı vaxtdan etibarən bir çoxları tərəfindən demokratik inkişafın zirvəsi kimi simvolizə edilən beynəlxalq təşkilat olub. Onun Parlamenti 27-dən artıq (hazırda 28) ölkədən demokratik yolla seçilmiş orqan kimi Avropa Komissiyası ilə birlikdə dünyada demokratiyanın vəziyyətinin monitorinqi sahəsində çox iş görür. O, ötən on il ərzində Avropa İttifaqı nöqteyi-nəzərindən demokratiya yolunda "problemləri" olan ölkələrə 100-dən artıq seçki müşahidə missiyası reallaşdırıb".